**Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradova**

**Hörmətli Ədalət müəllim !**

Danılmaz bir faktdır ki, Azərbaycan Dövlət İqtisad Universiteti fəaliyyət göstərdiyi müddət ərzində dövlətimizə neçə-neçə savadlı kadrlar hazırlamış, bu təhsil müəssisəsi ölkəmizin hərtərəfli inkişafında əvəzsiz rol oynamışdır. Xüsusilə son zamanlar bu təhsil müəssisəsinin beynəlxalq əlaqələrin genişlənməsi məqsədilə xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlığa üstünlük verməsi olduqca təqdirəlayiq haldır. Təbii ki, məhz bu istiqamətdə universitetin müəllim heyətinin əməyi olduqca böyükdür. Belə ki, məhz müəllimlərin müxtəlif xarici layihələrdə fəal iştirakı, universitetin gənc tədqiqatçılarının bir sıra milli və beynəlxalq elmi nailiyyətlər qazanmağı universitetin nüfuzunun günü-gündən daha da artmasına olduqca böyük töhvə verir.

Sevindirici bir haldır ki, Azərbaycan Dövlət İqtisad Universitetinin məzunları bu gün dövlətimiz üçün olduqca böyük əhəmiyyət kəsb edən mühüm dövlət qurumlarında yüksək vəzifələrdə xidmət edirlər. Həmçinin hal-hazırda bu ali təhsil müəssisəsində təhsil alan gənc kadrlar dövlətimizin işıqlı gələcəyinin etibarlı təminatçılarıdırlar.

Nəzərinizə çatdırmaq istəyirəm ki, mən də 1974-1979-cu illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi olmuşam, hal-hazırda da Xocalı rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışıram. Məzunu olduğum bu universitetin bugünki uğurları məni də çox yüksək səviyyədə qürurlandırır və gənclərimizin uğurlu gələcəyinin etibarlı əllərdə olduğuna məni bir daha əmin edir.

Mən də başda Siz olmaqla Azərbaycan Dövlət İqtisad Universitetinin bütün kollektivini universitetin 90 illik yubileyi münasibətilə ürəkdən təbrik edir və hər birinizə gələcək fəaliyyətinizdə daha böyük uğurlar arzulayıram!

***Hörmətlə,***
***Xocalı rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov***